UOT 94(479.24)

İSMAYIL HACIYEV
Akademik, AMEA Naxçıvan Bölməsi
haciyev.i1951@gmail.com

KAMERAL TƏSVİRLƏR KƏNGƏRLİLƏR HAQQINDA (XIX ƏSRİN 30-cu İLLƏRİ)

DOI: https://doi.org/10.36719/2708-065X/108/14-20

Məqalədə XIX əsrin 30-cu illərində Rusiyanın məmurları tərəfindən hazırlanmış Kameral təsvirlər (siyahıyaalma) və bu təsvirlərdə Kəngərli tayfası ilə bağlı məlumatlar, onların ümumiləşdirilməsi və obyektiv nəticəyə gəlinməsindən bəhs edilmişdir. Kameral təsvirlər bir çox mübahisəli məsələlərə aydınlıq gətirir. Kameral təsvirlərdəki hadisələrin XIX əsrin digər müəlliflərinin əsərlərində verilmiş fakt və hadisələrlə müqayisəsi doğru-düzgün nəticəyə əsas yaradır. Kameral siyahı həmin dövrün əvəzsiz tarixi mənbəsidir. Bu siyahıyaalmanın doğruluğu onunla əlaqədardır ki, həmin siyahı əsasında məlumatlar toplanılmış, ümumiləşdirilmiş və buna əsasən vergi və mükəlləfiyyətlər tətbiq edilmişdir. Kəngərli tayfası ilə bağlı məlumatlar siyahılarda əhatəli öz əksini tapmışdır.

Açar sözlər: Naxçıvan əyaləti, Ordubad dairəsi, Rusiya, XIX əsrin 30-cu illəri, Kameral təsvirlər, Kəngərli tayfaları.

Giriş. Naxçıvan ərazisi etnik baxımdan zəngin bir diyar olmuşdur. Bu diyarda çoxsaylı tayfalar yaşamışdır. Bunlardan biri də bu ərazidə yaşamış kəngərli tayfasıdır. Qədim mənbələrdən aydın olur ki, peçeneqlərin bir hissəsi kəngər adlanmışdır. Kəngərliləri hunlarla da əlaqələndirirlər. Kəngərlər Azərbaycan ərazisinə hunların tərkibində eranın ilk illərində gəlmişlər. Bunu II əsrin müəllifi Klavdi Ptolomeyin alban şəhərləri içərisində "Qanqar" adlı şəhərin adını çəkməsi də göstərir.

Azərbaycan xalqının etogenezində iştirak etmiş kəngərlilər orta əsrlərdə Azərbaycanın siyasi həyatında mühüm rol oynamışdır. Səfəvilər dövründə ustaclı tayfasının tərkibində idarəetmədə və hərbi sahədə daha fəal olmuşlar. Naxçıvanda yerli kəngərli tayfasından Rzaəddin xan, Şərif xan, Məmmədrza xan hakimiyyətdə olmuşlar. Sonrakı mərhələlərdə Naxçıvan torpaqları tiyul hüququ ilə kəngərlilərə verilmiş və ərazinin idarə edilməsi də onlara tapşırılmışdır. "Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr kəngərli arxeoqrafik sənədləri" adlı əsərdən aydın olur ki, Səfəvilərin hakimiyyəti dövründə Kəngərli tayfaları içərisindən çıxmış nümayəndələr dövlət aparatında ən yüksək vəzifələr tutmuşdular. Bu fikir xanlıq dövrünə aid idi. "XVIII əsrin ikinci yarısından etibarən Kəngərli hakimləri yüksək titullar daşımış və Azərbaycanın ən güclü xanlarından olmuşlar. Tayfanın xan nəslindən olan nümayəndələri Naxçıvan tüməninin hakimi, bəy nəslindən olanları isə hakimin vəkili kimi fəaliyyət göstərmişlər. İrsi başçı olan xan eyni zamanda Naxçıvanın xanı olmuşdur. Yüksək səlahiyyətli məmur olan vəkil isə xanın adından tayfa köçərilərinin daxili işlərini tənzimləyirdi".

Çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra əraziləri qeydə almaq, əhalini siyahıya almaq üçün İ.Şopenin başçılığı ilə Kameral təsvirlər (siyahılar) hazırlamışlar. Belə siyahılar XIX əsr boyu davam etmiş və Azərbaycan Respublikası Dövlət Tarix Arxivində Naxçıvan diyarına aid 43 kameral təsvir saxlanılır. Həmin kameral təsvirlərdə bu diyar haqqında, eləcə də kəngərlilər haqqında geniş məlumatlar verilmişdir. İlk dəfə olaraq fəlsəfə doktorları N.Əhmədli və M.Quliyev kameral təsvirləri dövriyyəyə gətirmiş və 1831, 1832-ci il kameral təsvirlər əsasında kəngərli tayfasından bəhs etmişlər.

Əsas hissə. XVIII əsrdən başlayaraq Rusiya imperiyasında tərtib edilən Kameral təsvirlər bu və ya digər ərazinin fiziki-coğrafi və sosial-iqtisadi vəziyyətinin hərtərəfli öyrənilməsinə imkan verirdi [7, s.38]. İ.Şopenin rəhbərliyi ilə Naxçıvan əyalətinə aid olan 6 və Ordubad dairəsi üzrə tərtib edilmiş 6 kameral təsvir hazırlanmışdır. Naxçıvan əyalətinə Naxçıvan şəhəri və 5 mahal (Əlincəçay, Naxçıvan, Məvazixatın, Xok və Dərələyəz), Ordubad dairəsinə isə Ordubad şəhəri və 5 mahal (Ordubad, Əylis, Dəstə, Biləv və Çənnəb) daxil idi. Kameral təsvirlər bu inzibati-ərazi vahidlərinin 11-i üzrə 1831-ci, Ordubad şəhəri üzrə 1832-ci ildə tərtib edilmişdir. Bizim istifadə etdiyimiz kameral təsvirlər yuxarıda

qeyd olunan 1831 və 1832-ci illərdə tərtib olunanlardır. Bu kameral təsvirlərdə əyalət, dairə və mahallar haqqında çoxsaylı məlumatlar vardır. Məqalənin adından göründüyü kimi kameral təsvirlərdə köngərlilər, onların tirələri, yerləşdikləri ərazilər, oradakı ailə sayı, köngərli süvariləri və başqa məlumatları ümumiləşdirmək, təhlilə cəlb etmək və obyektiv nəticələr əldə etməkdir.

E.Seyidbəylinin yuxarıda adını çəkdiyimiz əsərində Köngərli elinin qollarına məxsus 23 tayfanın adı çəkilir [19, s.18-20]. Ə.Çingizoğlu isə Köngərli elinin aşağıdakı tayfalarını göstərir: Bəydilli, Qaracadağlı, Yurdçu, Qaradolaq, Sarvanlar, Xalxal, Pirhəsənli, Qızıllı, Ağabəyli, Salahlı, Kəmən, Qaraxanbəyli, Hacılar, Cəmşidli, Bilici, Qızılqışlaq, Cağatay, Qaracallı, Kəlfirli, Ərəfsəli, Əlixanlı, Qarabulaqlı, Qarahəsənli, Rəiyyətli, Tatarlı, Bulaqarlı, Didivarlı, Ələkbərli, Kərəmpa, Kürdmahmudlu və b. (cəmi 30) [4, s.29].

V.Qriqoryevə görə Naxçıvan dairəsində 920 həyətdən ibarət olan Köngərlilər müxtəlif tayfalara və tirələrə bölünürdülər. O, 20 köngərli nəslinin Naxçıvan şəhəri və 17 kənddə yaşadıqlarını qeyd edir: Yurdçu (Cəhri), Cəmşidli (Goyarx, Xoy, Şahtaxtı, Gildəsər), Xalxallar (Vayxır), Qaraxanbəyli (Qaraxanbəyli), Ağabəyli, Cığataylı, Qaracallı, Bilici, Qarabulaqlar, Gecələr, Sarvanlar, Şahbanlu, Əlixanlı, Salahlı (Naxçıvan şəhəri), Aravanlı (Kərimbəy Dizəsi), Salahlı (Nəhəcir, Külüs, Mahmudoba), Qızıllı (Kültəpə), Pircahanlı (Qahab), Kəlfir (Tırkeş, Sələsus), Qızıl Qışlaqlar (Bulqan), Qarabağlar (Qarabağlar) [21, s.31].

XIX əsrin ortalarına aid məlumatda isə Köngər tayfalarının adları aşağıdakı kimi göstərilmişdir: Yurdçu, Qızıllı, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salaqı, Ağabəyli, Keman, Qarabağlar, Qaraxanbəyli, Hacılar, Cəmşidli, Bilici, Qızılqışlaq, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Bilici, Qızılilan, Qurdlar, Qaradolaqlı, Şabanlı, Kəlfir, Ərəfsəli (Ərəvsəli), Qaracallı, Qarakövsərli, Pənahlı, Sofulu, Bəydili (Bəydilli), Əliəkbərli, Dizavarlı, Bolqarlı, Kürdmahmudlu, Əlixanlı, Ziyadlı və Bərgüşadlı (37 tayfa) [22, s.537].

K.Smirnovun əsərində isə Naxçıvanda olan Köngərli tayfasının 25-nin adı göstərilir [20, s.29]. Bu müxtəliflik Köngərli tayfalarından yeni tirə və qolların ayrılması ilə əlaqədardır. Yerdəyişmələr də bəzən tirə və qolların artıb-azalmasına öz təsirini göstərmişdir.

Qeyd etməliyik ki, 1831-1832-ci illərdə ilk dəfə Köngərli tayfası Naxçıvan şəhərində və Naxçıvan əyalətində siyahıya alınmışdır. Bu işlər rusiyalı məmurlar tərəfindən aparılsa da Köngərli tayfasının başçısının məlumatlarına əsasən qeydə alınmışdır [12, s.27-28].

1831-ci il Kameral siyahısına görə Naxçıvan şəhərində 3.651 nəfər, Naxçıvan mahalında 4.191 nəfər, Əlincəçay mahalında 1.848 nəfər, Məvazixatın mahalında 1.497 nəfər, Xok mahalında 1.375 nəfər, Dərələyəz mahalında 4.583 nəfər müsəlman əhali, bütövlükdə Naxçıvan əyalətində 17.138 nəfər müsəlman əhali yaşayırdı. Kameral siyahıya görə həmin ildə Ordubad şəhərində 3.262 nəfər, Ordubad mahalında 552 nəfər, Əylis mahalında 347 nəfər, Dəstə mahalında 1.533 nəfər, Biləv mahalında 1.210 nəfər, Çənnəb (Çinanab) mahalında isə 343 nəfər müsəlman əhali, bütövlükdə Ordubad dairəsində 7.247 nəfər müsəlman olmuşdur. Beləliklə, aydın olur ki, Naxçıvan əyaləti və Ordubad dairəsi üzrə yaşayış yerlərində birlikdə 24.385 nəfər müsəlman yaşamışdır.

Rusiya ilə Qacarlar İranı arasında bağlanmış Türkmənçay müqaviləsindən sonra bu ərazilərə İrandan ermənilər köçürüldü. Köçürmədən sonra Naxçıvan əyalətində ermənilərin ən çox yaşadığı ərazi Naxçıvan mahalı idi. 1831-ci ildə burada 150 yerli və 1828-ci ildə İrandan köçürülmüş 941 gəlmə erməni ailəsi yaşayırdı. Bütövlükdə Naxçıvan əyaləti və Ordubad dairəsində 11.983 nəfər erməni yaşayırdı.

Naxçıvan əyaləti və Ordubad dairəsindəki müsəlman əhalinin böyük çoxluğu Azərbaycan türkü idi. Onların bayat, cavanşir və köngərlilərdən ibarət olduğu göstərilir [7, s.54].

İ.Şopen Naxçıvan şəhərində 411, Naxçıvan əyalətində isə 1.022 köngərli ailəsinin, cəmi 1.433 ailənin və 6.473 nəfər köngərlinin yaşadığını qeyd edir. Müəllif köngərliləri qədim kanqlı və peçeneqlərin varisləri olduğunu göstərməklə, onların görünüşcə mavi gözlü və sarışın olduğunu yazır [22, s.537]. Ümumiyyətlə Köngərlilər Naxçıvanın türk əhalisinin dörddə birini təşkil edirdi.

N.Əhmədlinin hesablamalarına görə köngərlilər ən çox Naxçıvan əyalətində yaşayırdılar. Kameral təsvirlərə görə köngərlilər Naxçıvan şəhərində 411 ailə, Naxçıvan mahalında 417, Əlincəçay mahalında 108 ailə, Məvazixatın mahalında 220 ailə, Xok mahalında 203 ailə, Dərələyəz mahalında 34 ailə

olmuşdur. Bütövlükdə Naxçıvan əyaləti üzrə 1.393 ailə olmuşdur. Ordubad dairəsində cəmi 58 ailə yaşamışdır. Beləliklə aydın olur ki, 1.451 ailə Naxçıvan əyaləti və Ordubad dairəsində olmuşdur.

1451 Kəngərli ailəsi 37 tayfadan ibarət idi. Onların 411-i Naxçıvan şəhərində, qalan 1040 ailə isə mahal və kəndlərdə məskunlaşmışdılar. Naxçıvan şəhərində 23 kəngərli tayfaları yaşamışdır. 1831-ci il Kameral siyahıya görə Naxçıvan şəhərində 82 Salahlı, 60 Kəclər, 47 Qaradolaq, 42 Bilici, 27 Ağabəyli, 18 Cəmşidli, 17 Qızıllı, 17 Kəltir, 17 Cağataylı, 12 Şabanlı, 11 Gemayi, 10 Sarbanlar, 9 Xalxallı, 9 Qaracalı, 7 Yurdçu, 7 Qaraxanbəyli, 5 Ərəfsəli, 5 Əlixanlı, 3 Pirhəsənli, 3 Qızılqışlağı, 1 Qarabağlar, 1 Qurdlar, 1 Qarakəsərli tayfasının ailələri yaşamışdır [7, s.57-58]. 1843-cü il Kameral siyahıya görə Naxçıvan şəhərində kəngərli ailəsi azalaraq 411-dən 191-ə enmişdir. Bunun əsas səbəbi taun və vəba xəstəliyinin yayılması və bir qisim ailələrin İrana köçməsi ilə bağlıdır.

Naxçıvan şəhərinin kameral təsvirində şəhərin əhalisi (5.479 nəfər), sərhədləri, ərazisi, məhəllələri, suları, evləri, karvansaraları, hamamları, dükanları, məscidləri, bazarları və ictimai binaları haqqında da məlumat verilir. Qeyd olunur ki, Naxçıvan şəhəri əvvəllər 4 məhəlləyə (Sarbanlar, Şahab, Əlixan və Qurdlar) bölünürdü. Lakin sonradan xeyli plansız tikililər əlavə edilmiş və şəhər 13 məhəllədən (Sarbanlar, Şahab, Əlixan, Qurdlar, Oruc, Xoşulu, Köhnə Qala, Çaparxana, Zığlı arx, Bilici, Xoylu, Erməni, Təzəkənd (yaxud Uzundivar) ibarət olmuşdur.

Şəhərdə müsəlman ailələri arasında 2 xan ailəsi, 45 bəy və sultan ailəsi, 11 nəfər hərbçi ailəsi, 2 ali ruhanilər ailəsi, 36 axund və mollaların ailəsi, 22 seyid ailəsi, 3 dərviş ailəsi və 6 mirzə ailəsi var idi. İmtiyazlı ailələrin sayı 127 idi.

Naxçıvan şəhərində 712 tatar evi (Azərbaycan türk evləri), 122 erməni evi, xəzinəyə aid 39 ev olmuşdur ki, bunların cəmi 873 evdən ibarət idi. Burada 1 kilsə və iki məscid vardır ki, onların birində 1 məktəb də fəaliyyət göstərirdi. 31 dükan, 3 karvansara mövcuddur ki, bunlardan birini ermənilər tutub, 31 dükan 2 karvansaraya aiddir. Şəhərdə cəmi 279 dükan vardır ki, bunun 233-ü fəaliyyət göstərir. Sənətkarlıq emalatxanalarının sayı həddindən artıqdır. Şəhərdə 56 baqqal, 31 başmaqçı, 22 dabbaq, 15 dəmirçi, 25 qəssab, 5 dərzi, 12 çörəkçi, 34 papaqçı, 14 bərbər və digər sənətkarlar fəaliyyət göstərirdi.

Kəngərlilər Naxçıvan əyalətində Ordubad dairəsində yaşayış məntəqələrində tayfalar üzrə məskunlaşmışdılar. Kameral siyahılardan məlum olur ki, 37 kəngərli tayfası Naxçıvan şəhəri və müxtəlif kəndlərdə yaşayırdılar.

Kəngərli tayfalarının 1451 ailəsinin yaşayış yerləri aşağıdakı kimidir:

Yurdçu tayfası Naxçıvan şəhəri (7); Naxçıvan mahalının Qaraçux kəndi (3), Aşağı Uzunoba kəndi (33), Didivar kəndi (1), Xalxal kəndi (2), Şahbuz kəndi (9); Məvazixatın mahalının Cəhri kəndi (207), Buzqov kəndi (13); Dərələyəz mahalının Ərgər kəndi (2), Herher kəndi (2), Terp kəndi (5);

Qaradolaq tayfası Naxçıvan şəhəri (47); Naxçıvan mahalının Yuxarı Hacıvar kəndi (2);

Qızıllı tayfası Naxçıvan şəhəri (17); Əlincəçay mahalının Bənəniyar kəndi (42); Naxçıvan mahalının Qahab kəndi (1), Kərbəlayı Oruc Dizəsi (3), Mərəlik kəndi (1);

Sarbanlar tayfası Naxçıvan şəhəri (10); Naxçıvan mahalının Yuxarı Hacıvar kəndi (2);

Bilici tayfası Naxçıvan şəhəri (42); Naxçıvan mahalının Bulqan kəndi (50), Qaraçux kəndi (9); Biləv mahalının Biləv kəndi (4); Çənnəb mahalının Düylün kəndi (5);

Əlixanlı tayfası Naxçıvan şəhəri (5); Əlincəçay mahalının Orta Anzır kəndi (12); Naxçıvan mahalının Yuxarı Hacıvar kəndi (6);

Bəydili tayfası Naxçıvan mahalının Sirab kəndi (12); Xok mahalının Qarabağlar kəndi (11), Xıncov kəndi (4), Sust kəndi (8);

Kəlfir tayfası Naxçıvan şəhəri (17); Naxçıvan mahalının Nəxşi Nərgiz kəndi (4), Didivar kəndi (1), Sirab kəndi (2), Şah Miranşah kəndi (15), Xalxal kəndi (1), Sələsüz kəndi (14), Mahmudabad kəndi (1), Mərəlik kəndi (5), Tırkeş kəndi (19);

Şabanlı tayfası Naxçıvan şəhəri (12); Əlincəçay mahalının Saltax kəndi (4), Yuxarı (Dib) Anzır kəndi (3);

Salahlı tayfası Naxçıvan şəhəri (82); Naxçıvan mahalının Qahab kəndi (5), Nəhəcir kəndi (11), Xorni kəndi (3), Sərab (Sirab) kəndi (20), Şahbuz kəndi (17), Külüs kəndi (16), Mahmudabad kəndi (3).

Bunlardan əlavə Kəngərli tayfalarından olan Xalxallı, Pirhəsənli, Ağabəyli, Gemayi, Qarabağlar, Cağatay (Cağataylı), Qaraxanbəyli, Hacılar, Cəmşidli, Qızılqışlaq, Qurdlar, Ərəfsəli, Qaracalı, Qara-

kəsərli, Kürdmahmudlu, Pənahlı, Kəclər, Sofulu, Ələkbərli, Vayxırlı, Didivarlı, Bulqarlı, Ziyadlı, Bərgüşadlı, Əliyanlı, Kürdhacı, Bəylər (cəmi 27 tayfa) tayfasının 397 ailəsi 48 şəhər və kəndlərdə məskunlaşmışdılar [7, s.55-57]. Bütövlükdə isə 1451 Kəngərli ailəsi Naxçıvan əyaləti və Ordubad dairəsinin 67 şəhər və kəndlərində məskunlaşmışdılar. Naxçıvan şəhərində 1848-ci ildə qeydə alınmış 230 Kəngərli ailəsini də buraya əlavə etsək, bütün Naxçıvan qəzasında 1.770 Kəngərli ailəsinin yaşadığı məlum olur [7, s.60].

Gətirilən nümunələrdən aydın olur ki, Kəngərli tayfaları içərisində ən çoxsaylı qrup 288 ailədən ibarət olan yurdçu tayfası idi. 163 ailədən ibarət olan cəmşidli tayfası sayca ikinci, 157 ailədən ibarət olan salahlı tayfası üçüncü yerdə gəlirdi. Bilici tayfası 110 ailədən ibarət olsa da, bu tayfanın kəngərlilər arasında xüsusi yeri vardı. Naxçıvan qoşununun hərbi rəisləri bu tayfaya mənsub idilər [7, s.57]. Kəngərli tayfası Naxçıvan şəhərində və Naxçıvan mahalının 9 kəndində yaşayırdı. 1831-ci ildə Naxçıvan əyaləti və Ordubad dairəsində 37 kəngərli tayfası qeydə alınmışdır ki, onlardan 23-ü həm də Naxçıvan şəhərində yaşayırdı.

Naxçıvan diyarı uzun illər Səfəvi dövlətinin xidmətinə Kəngərli süvarilərindən ibarət atlı dəstələri göndərib. Naxçıvanın hakimi, həm də sonra xanı olan Şükrulla xan Kəngərli 10 min Kəngərli atlı dəstəsinə "Naxçıvan süvariləri"nin sərkərdəsi kimi başçılıq etmişdir. O, mahir bir hərbçi kimi də tanınmış, Kəngərli tayfalarından təşkil edilmiş atlı qoşun hissələrinin tərkibində təkmilləşdirmə işi həyata keçirmişdir [4, s.34]. Süvari qoşun bir qayda olaraq kəngərlilərdən təşkil edilirdi. Naxçıvan hakimi olan kəngərli xanının qohumları içərisindən seçilən bu dəstənin komandirindən başqa, 2 sultan, 4 naib və lazımi sayda yüzbaşılar vardı. Süvari döyüşçülər verən və onların təminatını ödəyən kəngərli tayfası bütün vergi və mükəlləfiyyətlərdən azad idi [21, s.60].

Naxçıvan əyalətinin Naxçıvan, Əlincəçay, Məvazixatın və Xok mahallarının 23 kəndindən Kəngərli süvariləri yığılırdı. Ən çox süvari verən Nəzərəbad kəndi (11 nəfər), Cəhri kəndi (40 nəfər), Sələsüz kəndi (11 nəfər) və Aşağı Uzunoba kəndi (10 nəfər) idi. Bütövlükdə bu kəndlərdən 150 nəfər Kəngərli süvariləri yığılırdı. 50 nəfər isə 411 Kəngərli ailəsinin yaşadığı Naxçıvan şəhərindən yığılırdı. Süvarilərin ümumi sayı 200 nəfər olurdu.

Kameral təsvirlərdə Kəngərli tayfasına mənsub tirələrin yaşadıqları məhəllələr də göstərilib. **Sarbanlar məhəlləsində** kəngərlilərin Yurdçu, Qızıllı, Qaradolaq, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salahı, Ağabəyli, Gemayi (Gomayıl), Qarabağlar, Cağataylı, Qaraxanbəyli, Kəclər, Cəmşidli tayfaları; **Erməni məhəlləsində** kəngərlilərin Bilici tayfası; **Oruc məhəlləsində** kəngərlilərin Sarbanlar, Qızılqışlağı, Cəmşidli tayfaları; **Cağatay** məhəlləsində kəngərlilərin Cağatay (Cağataylı), Yurdçu, Qurdlar, Pirhəsənli, Bilici tayfaları; **Köhnə Qala məhəlləsində** kəngərlilərin Qaraxanbəyli, Bilici, Salahı tayfaları; **Xoşulu məhəlləsində** kəngərlilərin Salahı, Qaradolaq, Şabanlı, Bilici, Kəlfir, Gomayıl tayfaları; **Əlixan məhəlləsində** kəngərlilərin Ağabəyli, Ərəfsəli (Ərəfsəkli), Qızıllı, Əlixanlı, Kəclər, Qaraxanbəyli, Kəlfir, Xalxallı, Cəmşidli, Qaradolaq, Yurdçu, Salahı, Bilici, Qaracalı, Pirhəsənli, Çağatay, Xalxallı tayfaları; **Çaparxan məhəlləsində** kəngərlilərin Ərəfsəli, Şabanlı, Kəclər, Kəlfir, Qızıllı, Salahı, Gemayıl, Qaradolaq tayfaları; **Zığlı Arx** məhəlləsində kəngərlilərin Ərəfsəli, Qaradolaq, Salahı, Gomayıl, Bilici, Qızıllı, Kəclər, Cəmşidli, Hacılar tayfaları; **Bilici məhəlləsində** kəngərlilərin Kəclər, Bilici, Qaradolaq, Salahı, Şabanlı, Kəlfir tayfaları; **Şahab məhəlləsində** kəngərlilərin Bilici, Qaradolaq, Yurdçu, Kəclər, Gomayıl, Xalxallı, Qaracalı, Cəmşidli, Şabanlı, Qaraxanbəyli tayfaları; **Qala məhəlləsində** kəngərlilərin Salahı, Cəmşidli, Bilici tayfaları yaşayırdı.

Kameral siyahıların ən üstün cəhəti Kəngərli tayfalarının adları ilə yanaşı, onların harada yaşamaları, ailə üzvləri, yaşı, qohumluq dərəcələri və başqa əlamətlərin də qeyd edilməsidir. Belə ki, Şahab məhəlləsində yaşayan Kəngərli tayfalarının tanınmış nümayəndələri polkovnik Ehsan xanın böyük qardaşı Nəzərəli xan Kəlbəli xan oğlunun yaşı, ailə üzvləri, nökər və qulluqçuları haqqında da məlumat verilir [7, s.180; 12, s.30].

Kameral siyahıda Fərəculla ağa Kəlbəli xan oğlu, Naxçıvanın naibi I Ehsan xan və ailələri haqqında da məlumat verilmişdir. Kapitan və 4-cü dərəcəli Müqəddəs Vladimir Ordeni kavaleri Fərəculla ağa 25 yaşında; arvadı Pərizad xanım 20 yaşında (vəfat edib); qızı Şirin bəyim 3 yaşında (vəfat edib); anası Ümmüşərəf xanım 50 yaşında. Polkovnik və kavaler Ehsan xan Kəlbəli xan oğlu 40 yaşında, onun 4 həyat yoldaşı var: Xırda xanım (vəfat edib) 40 yaşında, Xədicə xanım (vəfat edib) 15 yaşında, Fatma xanım (ayrılıb) 30 yaşında, Telli xanım (ayrılıb) 18 yaşında. Üç oğulları var: İsmayıl xan 14

yaşında, Kəlbəli xan 9 yaşında, Baba xan (vəfat edib) 7 yaşında. Qızı: Sonabəyim (ərdə) 18 yaşında. Nökəri və xidmətçi qadın haqqında da bəhs olunur. Kameral siyahılarda Kəngərli tayfalarının nümayəndələri haqqında lazımi informasiyalar verilmişdir.

Əlincəçay mahalının kəndləri haqqında məlumat verilərkən orada yaşayan Kəngərli tayfasına aid olan ailələrdən də bəhs edilir. Ayaq Camaldında Qaraxanbəyli tayfasına aid 2 ailə, Ərəzin kəndində Kəclər tayfasının 2 ailəsi, Kırna kəndində Ərəfsə tayfasına mənsub olan 12 ailə, Bənəniyar kəndində Qızıllı tayfasına mənsub 42, Qaraxanbəyli tayfasına mənsub 6 ailə, Saltax kəndində Şabanlı və Gemayi (Gemayil) tayfasına aid 9 ailə, Baş Anzır kəndində Kürdmahmudlu tayfasına aid 20 ailə, Orta Anzır kəndində 12 Əlixanlı ailəsi, Aşağı (Dib) Anzır kəndində Şabanlı tayfasının 3 ailəsi yaşayırdı [8, v.205-249].

Kameral təsvirlərdə Kəngərli tayfalarının tanınmış nümayəndələrindən I Ehsan xanın, Fərəculla ağanın, Nəzərəli xanın, Şeyxəli bəyin və başqalarının malı, mülkü, torpaq sahibi olmaları haqqında da lazımi məlumatlar verilmişdir.

I Ehsan xanla qardaşı Şeyxəli bəy həm də Naxçıvan əyalətinin və Ordubad dairəsinin ən böyük torpaq mülkiyyətçiləri hesab olunurdu. Əlincəçay mahalındakı Dərgəməlik kəndi, Naxçıvan mahalındakı Şeyx Mahmud kəndində 240 xalvar torpaq sahəsi, Şada və Badamlı kəndləri, Məvazixatın mahalındakı Canı, Gərməçataq, İtqıran, Digin kəndləri, Buzqov kəndindəki tiyul , Kürədis, Oğbin və Sultanbəy kəndləri (1842-ci il kameral təsvirinə görə bu sonuncu kəndlər Dərələyəz mahalının tərkibində göstərilmişdir – İ.H.), Dərələyəz mahalındakı Lizbirt, Ses kəndləri və Sultanbəy Dizəsi, Beləv (Biləv) mahalındakı Subatan Dizə, Çənnəb (Çinanab) mahalındakı Üstüpü kəndinin yarısı Şeyxəli bəyə məxsus idi. Qeyd etməliyik ki, Kameral təsvirlər sahəsində mükəmməl və ciddi araşdırmaçı kimi tanınan N.Əhmədli mülk və tiyulların şəxslərə və xəzinəyə aid olmalarını dəqiqləşdirmişdir [7, s.678-690]. Müəyyən edilmişdir ki, Əlincəçay mahalının 12 kəndi müxtəlif sahibkarlara, 2 kəndi xəzinəyə; Naxçıvan mahalının 30 kəndi, Məvazixatın mahalının 5 kəndi, Dərələyəz mahalının 14 kəndi müxtəlif sahibkarlara, 1 kəndi kənd sakinlərinə, 39 kəndi xəzinəyə, 3 kəndi isə müxtəlif şəxslərə və xəzinəyə, Ordubad mahalının 1 kəndi sahibkara, 4 kəndi sakinlərə, Əylis mahalının 3 kəndi sakinlərə, Dəstə mahalının 1 kəndi sahibkara, 6 kəndi sahibkarlara və xəzinəyə, Beləv (Biləv) mahalının 6 kəndi sahibkarlara, 3 kəndi kənd sakinlərinə, 2 kəndi isə sahibkarlar ilə xəzinəyə, Çənnəb (Çinanab) mahalının 1 kəndi sahibkara, 1 kəndi isə xəzinəyə məxsus olmuşdur. Sahibkarlar içərisində Kəngərli tayfasının çoxsaylı nümayəndələri vardır.

Kameral təsvirlər üzrə aparılan müqayisə və araşdırmalardan aydın olur ki, Naxçıvan əyaləti və Ordubad dairəsi ərazilərində bir sıra yaşayış məntəqələri Kəngərli tayfa adları ilə üst-üstə düşür. Yəni Kəngərli tayfa adlarının bəziləri artıq sonrakı ilin kameral təsvirlərində kənd adları kimi tarixləşmişdir. Məsələn, Yurdçu tayfası - Yurdçu kəndi, Sarbanlar tayfası – Sarbanlar məhəlləsi, Xalxallı tayfası – Xalxal kəndi, Qarabağlar tayfası – Qarabağlar kəndi, Qaraxanbəyli tayfası – Qaraxanbəyli kəndi, Ərəfsəli tayfası – Ərəfsə kəndi, Vayxırlı tayfası – Vayxır kəndi, Didivarlı tayfası – Didivar kəndi, Qurdlar tayfası –Qurdlar məhəlləsi və s.

Bir məsələ də aydın olur ki, heç də bütün Kəngərli tayfası və onun qollarının heç də hamısı qeydiyyata alınmamışdır. Mənbələrə əsaslanan K.Smirnov da bu barədə fikirlərini söyləmişdir [20, s.16]. Bu həm də onunla əlaqədardır ki, Kəngərli tayfalarından sonrakı illərdə bir sıra nəsil tirələri ayrılmış, siyahıyaalma zamanı bəzən bunlar nəzərə alınmamış, yaxud bu barədə məlumatları olmamışdır.

Nəticə. Kameral təsvirlərdən (siyahıyaalmalardan) aydın olur ki, çar Rusiyası Şimali Azərbaycanı ilhaq etdikdən sonra ərazinin sosial-iqtisadi inkişafını, orada mövcud olan sənətkarlıq sahələrini, insanların istifadə etdiyi sosial obyektləri, əhalinin sayı, milli tərkibi, sosial vəziyyəti, Kəngərli tayfaları, onların yerləşməsi, tirələri, əhalinin ödədiyi vergilər, yerinə yetirdikləri mükəlləfiyyətlər və digər məsələləri dəqiqləşdirir, siyahıya alır və vergi tətbiq edirdi. Bu zaman əhalinin milli və sosial tərkibi nəzərə alınırdı.

Aparılan müqayisəli araşdırmalardan məlum olur ki, Kəngərli tayfaları ərazinin aborigen sakinləri olubdur. Naxçıvan çox qədimdən kəngərlilərin vətəni olmuşdur. Bu gün də Naxçıvan bölgəsinin tarixən qədim yaşayış yerləri Kəngərli tayfalarının və onun müxtəlif tirələrinin adlarını yaşadır.

Tarixin müxtəlif dövrlərində Naxçıvan diyarında və onun ətraf ərazilərində Kəngərli tayfaları yaşamışlar. Müxtəlif dövlət qurumlarının, onların və eləcə də ərazinin təhlükəsizliyinin təmin olunmasında Kəngərli süvarilərinin gücündən istifadə olunmuşdur. XIX əsrin 30-cu illərin Kameral təsvirlərində bir sıra dəqiqləşdirmələrə ehtiyac olsa da, onlarda Naxçıvan əyaləti və Ordubad dairəsi haqqında elmi mənbə əhamiyyəti kəsb edən çoxsaylı fakt və hadisələr öz əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608 s.
2. Biləv mahalının Kameral təsviri. 1831-ci il. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA), f. 24, siy.1, s.v. 360.
3. Çənnəb mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v. 361.
4. Çingizoğlu Ə. Abbasqulu bəy Kəngərli. Bakı: Mütərcim, 2013, 68 s.
5. Dərələyəz mahalının Kameral təsviri. 1831-ci il. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. Bakı: Elm və təhsil, 2021, s.400-508.
6. Dəstə mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v. 359.
7. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. 1831-ci il. Bakı: Elm və təhsil, 2021, 712 s.
8. Əlincəçay mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v.354.
9. Xok mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v.357.
10. Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, 175 s.
11. Kəngərli İ. Kəngərli elinin soy kitabı. Bakı: Nurlan, 2005, 296 s.
12. Quliyev M. 1832-ci il kameral siyahısı Kəngərli tayfası haqqında // AMEA NB-nin Elmi əsərləri. İctimai və humanitar elmlər seriyası. 2021, cild 17, № 1, s. 27-31.
13. Quliyev N. Naxçıvan xanlığının əhalisi. Bakı: Elm, 2006, 163 s.
14. Məmmədov A. Kəngərlər. Qədim dünyanın gizli fatehləri. Bakı: Çapar, 2022, 172 s.
15. Məvazixatın mahalının Kameral təsviri. 1832-ci il. AMDTA, f. 24, siy. 1, s.v.356.
16. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMRDA): F.314, siy. 6, iş12.
17. Ordubad şəhərinin Kameral təsviri. 1832-ci il. AMDTA, f. 24, siy. 1, s.v.372.
18. Ordubad mahalının Kameral təsviri. 1831-ci il. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. Bakı: Elm və təhsil, 2021, s. 568-586.
19. Seyidbəyli S. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000, 229 s.
20. Смирнов К. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
21. Статистическое описание Нахичеванской провинции (Составитель В.Н.Григорьев). СПб, 1833, 239 с.
22. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб, 1852, 1231 с.

ИСМАИЛ ГАДЖИЕВ
Академик, Нахчыванское отделение НАНА

КАМЕРАЛЬНЫЕ ОПИСАНИЯ О КЕНГЕРЛИ (30-е годы XIX века)

В статье рассматриваются камеральные описания (переписи), подготовленные российскими чиновниками в 30-е годы XIX века, и сведения о племени Кенгерли, содержащиеся в этих описаниях, их обобщение и объективный вывод. Камеральные описания дают разъяснение на многие спорные вопросы. Сопоставление явлений в камеральных описаниях с фактами и собы-

тиями, приведенными в произведениях других авторов XIX века, дает основание для правильного вывода. Камеральный список бесценный исторический источник того времени. Достоверность этой переписи обусловлена тем, что на ее основе собирались и обобщались информации, и на основании этого были введены налоги и пошлины. Сведения о племени Кенгерли нашли всестороннее отражение в списках.

Ключевые слова: Нахчыванская провинция, Ордубадский округ, Россия, 30-е годы XIX века, камеральные описания, племена Кенгерли.

ISMAYIL HAJIYEV
Academician, Nakhchivan Branch of ANAS

CAMERAL DESCRIPTIONS ABOUT THE KANGARLIS (30s of the 19th century)

The article deals with cameral descriptions (census) made by Russian officials in the 30s of the 19th century and information about the Kangarli tribe in these descriptions, their generalization and objective conclusion. Cameral descriptions clarify many controversial issues. Comparison of events in cameral descriptions with facts and events given in the works of other authors of the 19th century provides the basis for a correct conclusion. The cameral record is an invaluable historical source of that period. The accuracy of this census is due to the fact that on the basis of this list, data were collected, summarized and taxes and duties were applied accordingly. Information about the kangarli tribe is comprehensively reflected in the records.

Keywords: Nakhchivan province, Ordubad district, Russia, 1930s, Cameral descriptions, Kangarli tribes.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 31 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.